# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 oktyabr tarixli 156 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 aprel tarixli 998 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 oktyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1016; 2009, № 1, maddə 34; 2014, № 7, maddə 941; 2015, № 2, maddə 227; 2018, № 12 (II kitab), maddə 2722) ilə təsdiq edilmiş “Heyvanların və əhalinin sağlamlığı üçün təhlükəli olan xəstəliklərə tutulmuş heyvanların, onlardan alınan məhsulların və xammalın təhlükəlilik dərəcəsindən asılı olaraq götürülməsi, məhv edilməsi və ya götürülmədən məcburi zərərsizləşdirilməsi, emalı və ya təkrar emalı Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü və 1.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“1.3. Heyvanların və əhalinin sağlamlığı üçün təhlükəli olan xəstəliklər baş verdikdə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun 13.1.5-ci maddəsinə uyğun olaraq icrası məcburi olan qərarlar qəbul edilir və həmin qərarların icrası Azərbaycan Respublikasının Kənd Təsərrüfatı

Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (bundan sonra – Aqrar Xidmətlər Agentliyi) tərəfindən təmin edilir.

1.4. Bu Qaydaların 4-cü hissəsində göstərilən xəstəliklərə yoluxmuş yüklərin məhv edilməsi prosesi Agentliyin qərarına əsasən “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun 24.7-ci maddəsinə uyğun olaraq yerli icra hakimiyyəti orqanları tərəfindən xüsusi ayrılmış yerlərdə həyata keçirilir.”.

2. Aşağıdakı məzmunda 1.5-1.7-ci bəndlər əlavə edilsin:

“1.5. Bruselyoz və vərəm xəstəliklərinə yoluxmuş yüklərin emalı və ya təkrar emalı Aqrar Xidmətlər Agentliyi və ixtisaslaşmış heyvan kəsimi və (və ya) emal müəssisələri ilə bağlanılmış müqavilə əsasında həyata keçirilir.

1.6. Bruselyoz və vərəm xəstəlikləri istisna olmaqla, bu Qaydaların 5-ci hissəsində göstərilən xəstəliklərə yoluxmuş yüklərin götürülmədən məcburi zərərsizləşdirilməsi Aqrar Xidmətlər Agentliyi tərəfindən təmin edilir, emalı və ya təkrar emalı prosesi isə Agentliyin və Aqrar Xidmətlər Agentliyinin birgə iştirakı ilə yüklərin təhvil verildiyi heyvan kəsimi və (və ya) emal müəssisələri tərəfindən həyata keçirilir.

1.7. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.7.1. **götürülmə** - xəstəlik zamanı xəstə heyvanların, heyvan cəmdəklərinin və yaxud xəstə heyvanlardan alınan məhsul və xammalın xəstəlik mənbəyindən xüsusi ayrılmış yerə aparılması;

1.7.2. **məhvetmə** - xəstəlik zamanı heyvan cəmdəklərinin və xəstə heyvanlardan alınan məhsul və xammalın kremasiya, basdırılma yolu ilə, habelə digər üsullarla zərərsizləşdirilməsi;

1.7.3. **götürülmədən məcburi zərərsizləşdirilmə** - xarici mühit amillərinə davamlı olan və spor formasına keçə bilən xəstəlik amillərinin məhv edilməsi məqsədilə həmin xəstəliklərdən ölmüş və ya kəsilmiş heyvanların cəmdəklərinin kimyəvi məhlullarla işlənilməsi, habelə xəstəliklərlə sirayətlənmiş yerin bitki örtüyünün yandırılması və torpağın üst qatının kimyəvi məhlullarla işlənilməsi yolu ilə zərərsizləşdirilməsi;

1.7.4. **emal (təkrar emal)** - xəstəliklərə yoluxmuş heyvanlardan termiki işlənmə yolu ilə yeni məhsulun, həmçinin heyvan mənşəli məhsul və xammaldan xüsusi texnologiyaların tətbiqi və termiki işlənmə yolu ilə heyvan yeminin əldə edilməsi.”.

3. 3.1-3.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“3.1. Bu Qaydaların 4-cü və 5-ci hissələrində göstərilən xəstəliklərə yoluxmuş yüklər aşkar edildikdə, bu barədə baytarlıq

mütəxəssisləri və ya yük sahibləri tərəfindən 1 (bir) gün ərzində yerli icra hakimiyyəti orqanına, Agentliyin müvafiq regional bölməsinə (bundan sonra – regional bölmə) və (və ya) Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin aidiyyəti yerli qurumuna (bundan sonra – yerli qurum) müraciət edilir.

3.2. Yerli icra hakimiyyəti orqanı, regional bölmə və yerli qurum tərəfindən xəstəliklə bağlı şübhəli halın araşdırılması və xəstəliyin ilkin diaqnozunun təyin edilməsi məqsədilə müraciət daxil olan vaxtdan 1 (bir) gün müddətində yüklərə yerində baxış keçirilir və mövcud vəziyyətin ilkin araşdırılmasına dair bu Qaydaların əlavəsində müəyyən edilmiş məzmunda ilkin akt tərtib edilir. İlkin akt yerli icra hakimiyyəti orqanının nümayəndəsi, regional bölmənin baytarlıq müfəttişi və yerli qurumun rəhbəri, həmçinin yük sahibi tərəfindən imzalanır və möhürlənir. İlkin aktın nüsxələri yük sahibinə (bu barədə yük sahibinin imzası alınmaqla), yerli icra hakimiyyəti orqanına, regional bölməyə və yerli quruma, diaqnostik nümunələr isə həmin gün ərzində yerli qurum tərəfindən Agentliyin aidiyyəti laboratoriyalarına təqdim edilir.

3.3. Yüklərdən götürülmüş nümunələrin müayinəsi və ekspertizası baytarlıq-sanitariya normalarına uyğun olaraq Agentliyin laboratoriyalarında aparılır və nəticələri sınaq protokolu ilə rəsmiləşdirilir.

3.4. İlkin akt və sınaq protokolunun nəticəsinə əsasən bu Qaydaların 4-cü və 5-ci hissələrində göstərilən xəstəliklər aşkar edilərsə, 5 (beş) iş günü müddətində epizootiya əleyhinə fövqəladə komissiyaya məlumat verilir. Baş vermiş xəstəlik barəsində məlumatlar və onunla bağlı görülməli tədbirlər barəsində aşağıdakı məlumatlar Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sisteminə (AQTİS-ə) daxil edilir və real vaxt rejimində “Elektron kənd təsərrüfatı” informasiya sisteminə (EKTİS-ə) ötürülür:

3.4.1. laboratoriya müayinəsi nəticəsində müəyyən edilən son diaqnoz barədə müvafiq məlumatlar;

3.4.2. yük sahibi və ya yük üzrə məsul şəxs, habelə yükün yerləşdiyi ərazi barədə məlumatlar;

3.4.3. xəstəlik daşıyıcısı olan heyvanın növü, növlər üzrə baş sayı, onun (onların) çəkisi, habelə heyvan mənşəli məhsul və xammal barədə məlumatlar;

3.4.4. heyvan xəstəliyinin yayılmasına səbəb ola bilən və bu səbəbdən məhv ediləcək və ya zərərsizləşdiriləcək alət və əşyalar barədə məlumatlar (siyahı);

3.4.5. yükü aşkar etmiş mütəxəssisin (mütəxəssislərin) adı, soyadı, atasının adı, işlədiyi qurumun adı və vəzifəsi;

3.4.6. laboratoriyaya müayinə üçün nümunə və materialın göndərilməsi, həmçinin aparılmış laboratoriya müayinələrinin nəticələri haqqında məlumatlar;

3.4.7. laboratoriya müayinələri nəticəsində xəstəliklərin təhlükəlilik dərəcəsindən asılı olaraq heyvanların, heyvan mənşəli məhsulların və xammalın, alət və əşyaların məhv edilmə və ya zərərsizləşdirilmə üsulu;

3.4.8. xüsusi təhlükəli xəstəlik barədə məlumatın ilk dəfə daxil olduğu tarix.

3.5. Agentlik tərəfindən istifadəyə yararsız və ya şərti yararsız sayılmış (xəstəliyin təhlükəlilik dərəcəsindən asılı olaraq) yüklərin dövriyyədən çıxarılması, habelə həmin yüklərin götürülməsi, məhv edilməsi və ya götürülmədən zərərsizləşdirilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 436 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin baytarlıq nəzarəti sahəsində icrası məcburi olan qərarlarının formasının, onların tərtib edilməsi və verilməsi Qaydası”na 2 nömrəli əlavədə müəyyən olunmuş formada qərar qəbul edilir. Həmin qərar qəbul edildikdən sonra 3 (üç) iş günü müddətində Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sisteminə (AQTİS-ə) daxil edilir və real vaxt rejimində EKTİS-ə ötürülür.”.

4. 3.6-cı bənddə “Götürülmüş yüklər heyvanların yemlənməsinə, təkrar sənaye emalına” sözləri “Dövriyyədən çıxarılmış yüklər heyvanların yemlənməsinə, emala, təkrar emala” sözləri ilə əvəz edilsin.

5. 3.7-ci bənddə “Bu” sözü “Heyvanların yemlənməsi, emal, təkrar emal məqsədilə dövriyyədən çıxarılan” sözləri ilə əvəz edilsin.

6. 3.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.8. Bu Qaydaların 3.8-1-ci bəndində göstərilən hal istisna olmaqla, dövriyyədən çıxarılmış yüklərin emala və ya təkrar emala yönəldilməsi, habelə heyvanlar üçün yem kimi istifadə edilməsi Agentliyin razılığı və iştirakı ilə yük sahibi və ya onun vəkil etdiyi digər şəxs tərəfindən həyata keçirilir.”.

7. Aşağıdakı məzmunda 3.8-1-ci bənd əlavə edilsin:

“3.8-1. Bruselyoz və vərəm xəstəliklərinə yoluxduğuna görə dövriyyədən çıxarılmış yüklərin emala və ya təkrar emala yönəldilməsi, habelə heyvanlar üçün yem kimi istifadə edilməsi bu Qaydaların 1.5-ci bəndinə uyğun olaraq həyata keçirilir.”.

8. 3.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

“3.9. Bu Qaydaların 1.5-ci bəndinə uyğun olaraq dövriyyədən çıxarılmış yüklərin sonrakı aqibəti barədə sənəd Aqrar Xidmətlər Agentliyi tərəfindən, bu Qaydaların 1.6-cı bəndinə uyğun olaraq dövriyyədən çıxarılmış yüklərin isə sonrakı aqibəti barədə sənəd yük sahibi tərəfindən Agentliyə təqdim edilir.”.

9. 3.10-cu bənddən “sənaye” sözü çıxarılsın.

10. 3.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.12. Bu Qaydaların 1.3-cü və 3.5-ci bəndlərinə uyğun olaraq, qəbul olunmuş qərardan şikayətin verilməsi və ona baxılması “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

11. 3.13-cü bənddə “şəxs” sözü “şəxsin iştirakı ilə yerli qurum” sözləri ilə əvəz edilsin.

12. 3.14-cü bənddə “Bir sıra karantin və xüsusi təhlükəli yoluxucu xəstəliklər baş verdikdə, həmin xəstəliklərin ləğv edilməsi zamanı hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi Qaydaları” sözləri “Karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi zamanı hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi Qaydaları” sözləri ilə əvəz edilsin.

13. Qaydalara “Xəstəlik qeydə alınmış ərazidə mövcud vəziyyətin ilkin araşdırılmasına dair akt” əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 18 aprel 2023-cü il

№ 121

“Heyvanların və əhalinin sağlamlığı üçün təhlükəli olan xəstəliklərə tutulmuş heyvanların, onlardan alınan məhsulların və xammalın təhlükəlilik dərəcəsindən asılı olaraq götürülməsi, məhv edilməsi və ya götürülmədən məcburi zərərsizləşdirilməsi, emalı və ya təkrar emalı Qaydaları”na

**əlavə**

**Xəstəlik qeydə alınmış ərazidə mövcud vəziyyətin ilkin araşdırılmasına dair**

**AKT**

_________________________ “____” ___________ 20___ il
(yaşayış məntəqəsinin adı)

Aşağıdakı tərkibdə tərtib etdilər:
1.______________________________________________________________
2.______________________________________________________________
3.______________________________________________________________
4.______________________________________________________________
5.______________________________________________________________
Yük sahibinin iştirakı ilə
_________________________________________________________________
(soyadı, adı, atasının adı, ünvanı)
_________________________________________________________________
aktı ona görə tərtib etdilər ki, “___” ________ 20__ ildə xüsusi təhlükəli xəstəliklərin və karantin xəstəliklərinin baş verməsinə dair ________________
(məlumat daxil olmuş qurumun adı)
____________daxil olmuş məlumat əsasında _____________________________
(xəstəlik şübhəsi olan obyektin ünvanı)
____________________________ünvanda yerləşən obyektə baxış keçirildi və epizootoloji monitorinq aparıldı. Bu zaman aşağıdakılar aşkar edildi:

1. Aşkar edilmiş ___________________heyvana (quşa) aid cəmdəklərin sayı __________ədəd (İBH, XBH, quş, at və s.).
2. Klinik xəstə heyvanların (quşların) növlər üzrə sayı:

2.1. heyvanın növü _______________, sayı _________ baş;
2.2. heyvanın növü _______________, sayı _________ baş;
2.3. heyvanın növü _______________, sayı _________ baş.

3. Epizootoloji monitorinq çərçivəsində əldə edilmiş məlumatlara əsasən heyvanlarda (quşlarda) ___________________________________xəstəliyinə (xəstəliklərinə) şübhəli hal aşkar edildi. Son diaqnozun qoyulması məqsədilə baytarlıq-sanitariya tələbləri gözlənilməklə, aşağıda göstərilmiş diaqnostik nümunələr götürüldü:

3.1.____________________________________________________________

3.2.____________________________________________________________

3.3.____________________________________________________________

4. Götürülmüş diaqnostik nümunələr _________________________göndərildi.

(laboratoriyanın adı)

Xəstəliyin yayılmasının qarşısının alınması üçün yük sahibinə icrası məcbur olan aşağıdakı göstərişlər verildi:

4.1.____________________________________________________________

4.2.____________________________________________________________

4.3.____________________________________________________________

**İmzalar:**

1.______________________________________________________________

2.______________________________________________________________

3.______________________________________________________________

4.______________________________________________________________

5.______________________________________________________________

**Möhür yeri:**

Yük sahibi________________________________________________________

(imza, adı, soyadı)

_________________